## PARLAMENT SEÇKİLƏRİ - 2015

# Xalq-iqtidar birliyinin möhtəşəm zəfəri

**Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və qətiyyətli siyasətin sayəsində cari ilin on birinci ayına nikbin notlarla daxil olduq. Ölkə başçısının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, hücum diplomatiyası istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində ictimai-siyasi, sosial-iqtisadi həyatın bütün sferalarında yüksək nəticələr əldə olunduğu kimi, beynəlxalq müstəvidə də mövqelərimiz xeyli möhkəmlənmişdir. Ölkəmizin əldə etdiyi nailiyyətlər istər cəmiyyətimiz, istərsə də nüfuzlu beynəlxalq təşkilatlar, tanınmış xarici ekspertlər tərəfindən də yüksək qiymətləndirilmişdir.**



Bu günlərdə Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının hazırladıqları "Doing Business-2016: Tənzimləyici sahədə keyfiyyət və Səmərəliliyin Qiymətləndirilməsi Hesabatı"nda ölkəmizin bütün sahələrdə öz yüksək mövqeyini qoruyub saxladığı bir daha qeyd edilib. Bu Hesabata görə sahibkarlıq fəaliyyətinin aparılmasının ümumi reytinqində ölkəmiz bu il 100 mümkün xaldan 67,8 xal toplayaraq 63-cü yeri tutur.

Bir müddət bundan əvvəl dərc edilmiş Qlobal Rəqabət Qabiliyyəti Hesabatında isə Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyəti səviyyəsinə görə 140 ölkə arasında 40-cı yerdə qərarlaşaraq MDB məkanında 7 ildir lider mövqeyini qorumuş, "G-20"-yə üzv olan 8 ölkəni qabaqlamış, "Makroiqtisadi vəziyyət" göstəricisi üzrə 10-cu yeri tutmuş, biznesin təkmilləşdirilməsi, əmtəə bazarının səmərəliliyi, daxili bazarın həcmi, infrastruktur göstəriciləri üzrə əhəmiyyətli irəliləyişlərə nail olmuşdur. Avqust ayında "Fitch" Beynəlxalq Reytinq Agentliyi ölkəmizin reytinqini investisiya səviyyəsində bir daha təsdiq edərək proqnozu sabit saxlamışdır. Bu günlərdə, həmçinin Beynəlxalq Valyuta Fondu Azərbaycanın 2015-ci il üçün iqtisadi artım proqnozunu 4 faizədək yüksəltmişdir.

Xüsusilə vurğulamaq lazımdır ki, beynəlxalq maliyyə və iqtisadi böhranın davam etməsi, dərinləşməsi fonunda ölkə başçısı tərəfindən həyata keçirilən düzgün iqtisadi siyasətin nəticəsi olaraq sosial-iqtisadi inkişafımızda uğurlu göstəricilər əldə edildi. Cari ilin 9 ayında ümumi daxili məhsul 3,7 faiz artmışdır. Aparılan şaxələndirmə siyasətinin nəticəsidir ki, qeyri-neft sektorunun real artım tempi 6,4 faiz olmuşdur. Ümumilikdə qeyri-neft sektorunda yaradılan əlavə dəyər 2003-cü illə müqayisədə 8 dəfədən çox artmış, qeyri-neft sektorunun ümumi daxili məhsulda payı 68,8 faizə çatmışdır. Sənaye 2,1 faiz, o cümlədən qeyri-neft sənayesi 10,2 faiz, kənd təsərrüfatı 6,7 faiz, əhaliyə göstərilən pullu xidmətlər 6,2 faiz artmış, inflyasiya 3,7 faiz təşkil etmişdir. Əhalinin gəlirlərində artım meyilləri davam etmiş və ötən ilin eyni dövrü ilə müqayisədə 5,8 faiz, hər nəfərə düşən gəlirlər 4,5 faiz artmışdır. Yanvar-avqust ayları ərzində orta aylıq əməkhaqqı 4,4 faiz artaraq 460 manata yüksəlmiş, 87 min yeni iş yeri açılmışdır. Bütün sosial proqramlar uğurla yerinə yetirilmişdir.

Azərbaycanda qlobal böhran şəraitində mühüm Dövlət Proqramlarının icrasının davam etdirilməsi ölkəmizdə aparılan uğurlu iqtisadi siyasətdən xəbər verir. Bütün bunlar isə deməyə əsas verir ki, dövlət başçısı İlham Əliyevin uğurla yürütdüyü iqtisadi siyasət qarşıdakı illərdə də müsbət nəticələrini verəcək, respublikamız ən qısa zamanda inkişaf etmiş ölkələrin səviyyəsinə yüksələcəkdir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycanın müstəqil dövlət kimi inkişaf strategiyasını belə xarakterizə edib: "Bu gün dünyada artıq Azərbaycanın inkişaf modeli haqqında danışılır, qeyd edilir. Həm siyasi sahədə, beynəlxalq münasibətlərin tənzimlənməsində, ölkədaxili proseslərin inkişafında, multikulturalizmlə bağlı bizim təcrübəmiz öyrənilir. Həm də hesab edirəm ki, iqtisadi inkişaf modelimiz də bu gün bir çox ölkələr üçün cəlbedici ola bilər. Çünki biz şaxələndirmə yolu ilə gedirik. Ölkə iqtisadiyyatı artıq çoxşaxəli iqtisadiyyatdır. Qeyri-neft sektoru ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir. Biz son illər ərzində aparılan islahatlar nəticəsində bu səviyyəyə qalxa bilmişik. Müstəqillik, müstəqil siyasət, milli maraqlar bizim üçün əsas vəzifədir, əsas məsələdir. Biz bundan sonra da Azərbaycanın seçimini qoruyacağıq, bütün təzyiqlərə, bəzi hallarda təxribatlara baxmayaraq, öz yolumuzdan dönməyəcəyik. Sosial-iqtisadi göstəricilərimiz də bir daha təsdiq və sübut edir ki, biz düzgün yoldayıq".

Fərəhli haldır ki, bütün bunlar ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Məhz buna görə də seçicilərimiz noyabrın 1-də ölkə başçısı İlham Əliyevə, onun həyata keçirdiyi uğurlu siyasətə yüksək etimad nümayiş etdirərək böyük ruh yüksəkliyi ilə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verdilər. Bu isə xalq-iqtidar birliyinin növbəti möhtəşəm zəfəridir.

**Zahid Rza,**
***"İki sahil"***